## *İgidlərim qoldu,qıçdı*

## *(20 Yanvar şəhidlərinə)*

Göz qaynayar  bulaq kimi,
Bəs bulağa nə deyək biz?
İtkinləri haylayırıq,
Bu sorağa nə deyək biz?

Yüz dərdə, qəmə dolmuşuq,
Ötən anadil olmuşuq,
Yanıb-yanıb kül olmuşuq,  Ax,
ocağa nə deyək biz?

Ümidin axırı heçdi,
Yağılar yurdumu biçdi,
İgidlərim qoldu, qıçdı  O
uşağa nə deyək biz?

Ürək yansa külmü olar?  Dərd,
qəm qara tülmü olar?  Dağ
boyda da külmü olar?  Of, bu
dağa nə deyək biz?

Dəmirçi Z. İgidlərim qoldu, qıçdı : 20 Yanvar şəhidlərinə : şeir // Qayalı :
şeirlər və poemalar. – B.: UniPrint, 2008. – S.66.